WESTERN caspian UNIVERSITY

**Tələbə Məmnuniyyəti və Xidmət Qiymətləndirmə Sorğusu Hesabatı**

Sorğunun keçirilmə tarixi- 25.10.2025-01.11.2025

Sorğunu tərtib edən- **Tələbə Dəstək Mərkəzi**

Sorğuda iştirak edən tələbə sayı - **1124 (38.46%)**

Bu hesabat, Qərbi Kaspi Universitetində 25 sentyabr – 1 oktyabr 2025-ci il tarixlərində keçirilmiş "Tələbə Məmnuniyyəti və Xidmət Qiymətləndirmə Sorğusu"nun nəticələrini təqdim edir. Sorğunun əsas məqsədi, tələbələrin universitetdə təqdim olunan xidmətlərə dair məmnunluq səviyyəsini və təkmilləşdirilməli sahələri müəyyən etməkdir. Sorğu anonim keçirilmişdir.

Sorğunun QR kodu və linki aşağıda yerləşdirilmişdir.

**https://docs.google.com/forms/d/e/1FAIpQLSc76WF4Gj4s8JEtZ7ek_qEziL06WChhJRolosD5FZ6l4AfBoA/viewform?usp=dialog**

1. **Sorğuda iştirak edən tələbələrin kurslar üzrə göstəriciləri.**

**Sorğuda müxtəlif ixtisas və tədris səviyyələrində təhsil alan tələbələr iştirak etmişdir.**

**İştirakçıların kurs üzrə bölgüsü aşağıdakı kimidir:**




| **Kurslar** | **Faiz göstəriciləri** |
|---|---|
| I kurs | 29.7% |
| II kurs | 25.6% |
| III kurs | 23.8% |
| IV kurs | 20.1% |
| V kurs | 0.84% |

## 2. İştirak edən tələbələrin ixtisaslar üzrə göstəriciləri.




| Məktəblər | Tələbə sayı |
|---|---|
| Yüksək texnologiyalar və innovativ mühəndislik | 272 |
| Psixologiya | 98 |
| İqtisadiyyat | 157 |
| Biznes və idarəetmə | 294 |
| Siyasi ictimai elmlər | 140 |
| Dizayn | 31 |
| Filologiya | 132 |

**3. Cinsiniz**

- **Kişi** 537 nəfər
- **Qadın** 587 nəfər



**4. Dekanlıqdan informasiya əldə etmək asandır və problemlərinizə vaxtında cavab verilir:**







| Məktəblər | Razı-deyiləm cavabı verən tələbə sayı |
|---|---|
| Filologiya və tərcümə məktəbi | 5 |
| Dizayn məktəbi | 8 |
| Psixologiya məktəbi | 10 |
| Siyasi ictimai elmlər məktəbi | 6 |
| İqtisadiyyat məktəbi | 7 |
| Biznes və idarəetmə məktəbi | 12 |
| Yüksək texnologiyalar və innovativ mühəndislik məktəbi | 14 |

**5. Tyutorların xidməti sizi qane edir:**

→ Razıyam 812 nəfər

→ Qismən Razıyam 295 nəfər

→ Razı deyiləm 17 nəfər




| Məktəblər | Razı-deyiləm cavabı verən tələbə sayı |
|---|---|
| Filologiya və tərcümə məktəbi | 0 |
| Dizayn məktəbi | 2 |
| Psixologiya məktəbi | 5 |
| Siyasi ictimai elmlər məktəbi | 4 |
| İqtisadiyyat məktəbi | 2 |
| Biznes və idarəetmə məktəbi | 3 |
| Yüksək texnologiyalar və innovativ mühəndislik məktəbi | 2 |

## 6. Universitetdə tədris keyfiyyətindən nə dərəcədə razısınız:







## 7. Müəllimlər dərsləri interaktiv və praktik şəkildə keçməyə çalışır?

- **Bəli** 856 nəfər
- **Xeyr** 268 nəfər



**8. Universitetdə fəaliyyət göstərən klublar haqqında məlumatlısınızmı?**

- ✓ **Bəli** 1032
- ✓ **Xeyr** 92



9. Hansı kluba üzv olmusunuz?




**Cavab verməyən tələbə sayı:**

| Məktəblər | Tələbə sayı |
|---|---|
| Yüksək texnologiyalar və innovativ mühəndislik | 94 |
| Psixologiya | 45 |
| İqtisadiyyat | 36 |
| Biznes və idarəetmə | 69 |
| Siyasi ictimai elmlər | 56 |
| Dizayn | 12 |
| Filologiya | 72 |

**10. Universitetdə olan laboratoriya və texniki avadanlıqlar sizin üçün əl çatandır?**

**1. Bəli** 915 nəfər

**2. Xeyr** 209 nəfər




**11.Yeməkxana xidmətləri və yeməklərin keyfiyyəti ilə bağlı məmnuniyyətiniz necədir?**

- Razıyam 856 nəfər
- Qismən razıyam 225 nəfər
- Razı deyiləm 43 nəfər



**12. Kitabxananın ümumi şəraiti və istifadə rahatlığından nə dərəcədə məmnunsunuz?**

- Razıyam 856
- Qismən razıyam 204
- Razı deyiləm 64




**13. Universitet binasında olan WC-lərin təmizliyi sizi qane edir?**

✓ Bəli 993

✓ Xeyr 131



WESTERN caspian UNIVERSITY

**Hesabat**

Qərbi Kaspi Universitetində tələbələrin tədris və sosial mühitlə bağlı fikirlərini öyrənmək məqsədilə keçirilmiş sorğu nəticəsində ortaya çıxan əsas problemlər aşağıdakı kimi ümumiləşdirilmişdir.

**1. Dərs vaxtlarının uzun olması** – Tələbələr dəslərin 90 dəqiqə olması haqqında bildiriblər. Dərslərin 80 dəqiqə olması və ya 45 + 45 dəqiqə formatında təşkil olunması tələbələrin diqqətinin qorunması və yorğunluğun azaldılması baxımından faydalı olar. Bu, tələbələrin 90 dəqiqəlik dərsi fasiləsiz dinləməkdən daha effektiv və rahat mənimsəməsinə şərait yaradır.

**2. İçərişəhər və Filologiya korpuslarında bufetlərin fəaliyyət göstərməməsi -** Tələbələr içərişəhər və filologiya korpusundakı marketlərə getdikdə dərsə gecikirlər və bu zaman həm vaxt itirirlər, həm də marketdən gətirilən qida qalıqları korpuslarda zibillənməyə səbəb olur. Buna görə də, filologiya və içərişəhər korpuslarında bufetlərin fəaliyyətə başlaması tələbələr üçün həm rahatlıq, həm də korpusların təmizliyinin qorunması baxımından faydalı olar.

**3. Tələbələr yalnız mühazirə və seminar deyildə, həm də praktika problemini qeyd ediblər -** Tələbələrin ixtisaslı kadr kimi yetişməsi üçün onları müəllimlərlə və ya təyin olunacaq müvafiq şəxslərlə birlikdə işlə bağlı praktika yerlərinə göndərmək faydalı olardı. Bu, tələbələrin təhsilə motivasiyasını artırmaqla yanaşı, onların peşə bacarıqlarının inkişafına da şərait yaradacaq.

**4. Patok dərslərində qrupların azadılması -** Patok dərslərində 5-6 qrupun birgə keçirilməsi zamanı həm tələbələr səs-küydən dərsi normal dinləyə bilmirlər, həm də müəllim materialı tam çatdıra bilmir. Bu səbəbdən qrup sayının 2-3-ə endirilməsi tədrisin keyfiyyətinin artırılması üçün məqsədəuyğun olardı.

**Tələbə Dəstək Mərkəzinin Mütəxəssisi: Samir Sadiqov**